**Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin iclasının**

**P R O T O K O L U №2**

**Naxçıvan şəhəri** **18 may 2024-cü il**

18 may 2024-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin növbəti iclası keçirilmişdir.

| | |
|---|---|
| **Sədrlik edən:** | -Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin sədri İsa İsayev |
| **Katib:** | -Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin üzvü Sevda Quluyeva |

**İclasda iştirak etdilər:**

| | | |
|---|---|---|
| 1. | Həsənova Esmira Həsən qızı | -Komitənin sədr müavini |
| 2. | Babayev Tofiq Süleyman oğlu | -Komitənin üzvü |
| 3. | Bağırsoylu Hüseyn Qədirulla oğlu | -Komitənin üzvü |
| 4. | İsmayılov Ehtibar Şəhrud oğlu | -Komitənin üzvü |
| 5. | Məmmədov Nazim Məmməd oğlu | -Komitənin üzvü |
| 6. | Vəliyev Musa Məmməd oğlu | -Komitənin üzvü |
| 7. | Zeynalov Azər Yadulla oğlu | -Komitənin üzvü |

**Dəvət olunanlar:**

1. Ramil Nəbiyev - Ali Məclis Aparatının Deputatlarla, komitələrlə və komissiyalarla iş şöbəsinin müdiri
2. Nihad Möhbalıyev - Ali Məclis Aparatının İqtisadi məsələlər şöbəsinin müdiri
3. Həsən İsmayılov - Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən
4. Sahir Rüstəmov - Nazirlər Kabineti Aparatının rəhbəri
5. Əliheydər Qurbanlı - Ali Məclis Aparatının Deputatlarla, komitələrlə və komissiyalarla iş şöbəsinin müdir müavini
6. Rəmzi İbrahimov - Ali Məclis Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr sektorunun müdiri
7. Firudin Məmmədov - Ali Məclis Aparatının İqtisadi məsələlər şöbəsinin Büdcə nəzarəti sektorunun müdiri

8. Beyrək Cəfərov - Ali Məclis Aparatının Protokol sektorunun baş məsləhətçisi

9. Oruc Babayev - Ali Məclis Aparatının Deputatlarla, komitələrlə və komissiyalarla iş şöbəsinin böyük məsləhətçisi

10. İsmayıl Bağırov - Nazirlər Kabineti Aparatının İqtisadiyyat şöbəsinin əməkdaşı

**İclasın gündəliyi:**

**“Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrası haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi**

İclası komitənin sədri İsa İsayev açaraq bildirdi ki, iclasda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin 9 üzvü, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının, Nazirlər Kabineti Aparatının nümayəndələri və Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Həsən İsmayılov iştirak edir.

Qeyd etdi ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 42.1-ci maddəsinə əsasən Ali Məclisin komitəsinin iclası onun üzvlərinin yarıdan çoxu iştirak etdiyindən səlahiyyətlidir.

İsa İsayev iclas iştirakçılarına gündəlikdə duran məsələ ilə bağlı məlumat verdi.

Komitə sədri bildirdi ki, hər il olduğu kimi, bu ildə Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin hazırladığı 2023-cü il üçün büdcənin gəlir və xərc maddələri üzrə faktiki icrası ilə bağlı illik hesabatı və müvafiq qanun layihəsi Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən Ali Məclisə təqdim edilmişdir.

İsa İsayev Nazirlər Kabinetinin “Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin faktiki icrası barədə illik hesabat” və müvafiq qanun layihəsinin Ali Məclis Aparatının Deputatlarla, komitələrlə və komissiyalarla iş şöbəsi tərəfindən bütün deputatlara göndərildiyini və deputatların məlumatlı olduğunu bildirdi. Hesabat və qanun layihəsi barədə məlumat verməsi üçün söz maliyyə nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Həsən İsmayılova verildi.

**Çıxışda:** Həsən İsmayılov qeyd etdi ki, Naxçıvan Muxtar Respublikası büdcəsinin gəlirləri 2023-cü ildə 152 milyon 222 min manat plana qarşı 121,1 faiz və ya 184 milyon 385 min 484 manat məbləğində icra edilmiş, büdcəyə 32 milyon 163 min 484 manat artıq vəsait mədaxil edilmişdir.

Gəlirlərin 89,3 faizi və ya 164 milyon 717 min 979 manatı vergi orqanlarının, 6,5 faizi və ya 11 milyon 901 min 609 manatı gömrük orqanlarının xətti ilə toplanılmış, 2,9 faizi və ya 5 milyon 420 min manatı büdcə təşkilatlarının ödənişli xidmətlərindən, 1,3 faizi və ya 2 milyon 345 min 840 manatı isə digər mənbələr hesabına daxil olmuşdur.

2023-cü il ərzində Avtomobil Yolları Məqsədli Büdcə Fondu üzrə gəlirlər 2 milyon 20 min manat plana qarşı 14 milyon 340 min 185 manat məbləğində icra edilmiş, xərclər 2 milyon 20 min manat olmuşdur.

Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin xərcləri 605 milyon 13 min manat plana qarşı 83,4 faiz həddində, 504 milyon 316 min manat məbləğində icra edilmiş, büdcənin xərclərinə 100,7 milyon manat qənaət olunmuşdur.

2023-cü ildə Azərbaycan Respublikasının dövlət büdcəsinin mərkəzləşmiş xərclərindən 452 milyon 791 min manat dotasiya ayrılması nəzərdə tutulmuş, dotasiya nəzərdə tutulandan 137 milyon 791 min manat az, 315 milyon manat məbləğində icra edilmiş, buna baxmayaraq Naxçıvan Muxtar Respublikası büdcəsinin xərcləri sekvestr tətbiq edilmədən maliyyələşdirilmiş, əlavə olaraq 1 yanvar 2024-cü il tarixə Naxçıvan Muxtar Respublikası büdcəsinin vahid xəzinə hesabının sərbəst qalığı 18 milyon 18 min 199 manat məbləğində müəyyən edilmiş, həmin məbləğin 12 milyon 320 min 185 manatı məqsədli büdcə fondu, 5 milyon 698 min 014 manatı isə yerli büdcə üzrə hesablanmışdır. Təklif edilən qanun layihəsində həmin vəsaitlər barədə müddəa əks etdirilmişdir.

2023-cü ildə Naxçıvan Muxtar Respublikası büdcəsinin mərkəzləşdirilmiş xərclərinin icrası 82,4 faiz, yerli xərcləri isə Naxçıvan şəhəri üzrə 94 faiz, Şərur rayonu üzrə 91,5 faiz, Babək rayonu üzrə 94,2 faiz, Ordubad rayonu üzrə 92,6 faiz, Culfa rayonu üzrə 91,7 faiz, Şahbuz rayonu üzrə 90,2 faiz, Kəngərli rayonu üzrə 89,8 faiz, Sədərək rayonu üzrə 87,7 faiz həcmində icra olmuşdur.

Məsələ ətrafında aparılan müzakirələrdə komitənin sədri **İsa İsayev**, sədr müavini **Esmira Həsənova**, üzvləri **Hüseyn Bağırsoylu**, **Sevda Quluyeva** və **Ehtibar İsmayılov** Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrasının gəlirlər üzrə artmasının, eyni zamanda xərclər üzrə qənaətin səbəbləri ilə bağlı suallar səsləndirdilər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının İqtisadi məsələlər şöbəsinin müdiri **Nihad Möhbalıyev** Nazirlər Kabineti tərəfindən müzakirə üçün Ali Məclisə təqdim olunan "Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsini müsbət qiymətləndirdi. Həmçinin muxtar respublikanın 2023-cü il büdcəsinin icrasının, ümumilikdə, səmərəli olduğunu qeyd etdi.

Maliyyə nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən **Həsən İsmayılov** və Nazirlər Kabineti Aparatının İqtisadiyyat şöbəsinin əməkdaşı **İsmayıl Bağırov** səsləndirilən suallara aydınlıq gətirdilər. Büdcə xərclərində yaranmış qənaətin səbəbinin əməyin ödənişi, malların (iş və xidmətlərin) satın alınması, subsidiyaların ödənilməsi, sosial ödənişlər və qeyri-maliyyə aktivləri üzrə olduğu diqqətə çatdırıldı.

**Çıxışda:** Komitə sədri İsa İsayev bildirdi ki, 2023-cü il büdcəsinin faktiki icrası ilə bağlı qanun layihəsi və illik hesabat onu deməyə əsas verir ki, Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsi səmərəli və müsbət dinamikalı olmuşdur.

Bildirdi ki, “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 6.1-ci maddəsinə əsasən Ali Məclisin İqtisadi siyasət komitəsi müzakirə etdiyi məsələlərə dair qərarlar və rəylər qəbul edir.

Sonda İsa İsayev altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin rəyini oxudu və “Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrası haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi Ali Məclisin müzakirəsinə tövsiyə edildi.

**İclasa sədrlik edən:** **İ.İsayev**

**Katib:** **S.Quluyeva**